**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**GÜLNARƏ ƏLƏDDİN QIZI SEYİDOVA**

# AZƏRBAYCAN DASTANLARININ ARAŞDIRILMASI PROBLEMLƏRİ (“AZƏRBAYCAN ŞIFAHI XALQ ƏDƏBIYYATINA DAIR TƏDQIQLƏR” MƏCMUƏLƏRI ƏSASINDA)

**5719.01 - Folklorşünaslıq**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I – 2013**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Klassik folklor" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **İsrafil İsmayıl oğlu Abbaslı**
filologiya üzrə elmlər doktoru,
professor

**Rəsmi opponentlər**: **Seyfəddin Həmzə oğlu Qəniyev**
filologiya üzrə elmlər doktoru

**Seyfəddin Gülverdi oğlu Rzasoy**
filologiya üzrə elmlər doktoru,
dosent

**Aparıcı müəssisə**: AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Şifahi xalq ədəbiyyatı və yazılı abidələr" şöbəsi

Müdafiə "_22___"_05__2013-cü ildə saat ___ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdindəki FD.01.201 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: Az1001, Bakı, İçərişəhər, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "_____" ____________ 2013-cü il tarixdə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent:** **Afaq Xürrəm qızı Ramazanova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dastan janrı və onun araşdırılma problemləri (dastanşünaslıq) Azərbaycan eposşünaslığının tədqiq aktuallığını heç vaxt itirməyən mövzularındandır. Bu, ilk növbədə üç mühüm amillə - dastanın bir janr kimi başqa folklor janrları içərisində mövqeyi, janrın milli düşüncədəki rolu və dastanşünaslığın elmi təcrübəsinin nəzəri və metodoloji cəhətdən ümumiləşdirilməsi zərurəti ilə şərtlənir.

Dastan janrının yuxarıdakı araşdırılma problemlərinin tədqiqi dastanşünaslığın elmi təcrübəsinin nəzəri və metodoloji cəhətdən ümumiləşdirilməsi zərurəti ilə bağlıdır. Azərbaycan eposşünaslığının zaman cəhətindən bir əsrdən yuxarı araşdırma təcrübəsi olduğunu və bu ənənənin çoxsaylı tədqiqatlarla təmsil olunduğunu nəzərə aldıqda dastanşünaslığın elmi təcrübəsinin nəzəri və metodoloji cəhətdən ümumiləşdirilməsi "Azərbaycan dastanlarının araşdırılması problemləri"ni bir mövzu kimi folklorşünaslığın daim aktual vəzifəsinə çevirir.

Dastan Azərbaycan folklorunun həm poetik forması, həm də janr quruluşu baxımından ən iri janrıdır. "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi dastanlar öz həcminin nəhəngliyinə görə monumental abidələr hesab olunur. Həmçinin, dastan bir janr kimi digər janrların fövqündə dayanmaqla onları öz poetik quruluşuna daxil edə bilir. Təsadüfi deyildir ki, folklorşünaslıqda dastanlar epik növə aid edilməklə həm də epik-lirik janr hesab olunur. Öz poetik quruluşunda nəsr və nəzm formalarını, janr quruluşunda epik, lirik, dramatik növün başqa janrlarını (atalar sözü, məsəllər, qaravəllilər, xalq şerinin qoşma, gəraylı, müxəmməs, bayatı və s.) birləşdirən dastan janrının poetik dünyası, əslində, tükənməz aləmdir. Folklorşünaslıq elmimizin nəzəri səviyyəsi dərinləşdikcə dastanın poetik quruluşunun daha dərin qatlarına enmək imkanı yaranır. Bu da öz növbəsində göstərir ki, Azərbaycan dastanlarının tədqiqi ilə bağlı bütün problemlər folklorşünaslığımız üçün daim aktual olan mövzudur.

**Dissertasiyanın obyekti və predmeti.** Tədqiqatın obyektini 1961-ci ildən nəşrə başlamış və indiyədək 35-dən yuxarı cildi çap

olunmuş "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" məcmuəsində (Bundan sonra "Tədqiqlər") özünə yer almış Azərbaycan dastanlarına aid məqalələr təşkil edir. Araşdırma obyekti kimi seçilmiş yazılar, təqribən 120-dək məqaləni əhatə edir.

İşin predmeti bu baza əsasında Azərbaycan dastanlarının araşdırılma problemlərini müəyyənləşdirməkdən, onların inkişaf xətlərini, təmayül istiqamətlərini, keçdiyi mərhələ və yolları elmi-nəzəri təhlilə cəlb etməkdən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın qarşısında duran başlıca məqsəd "Tədqiqlər" məcmuəsi əsasında Azərbaycan dastanlarının araşdırılma problemlərini öyrənməkdir. Bu məqsəd aşağıdakı vəzifələrin yerinə yetirilməsini tələb edir:

"Tədqiqlər"də Azərbaycan dastanlarına aid araşdırmaların tematik-statistik təsvirini vermək;

- məcmuədə qədim türk eposu, o cümlədən Oğuznamə haqqında aparılmış tədqiqatlar əsasında qədim və orta əsrlər epik düşüncəsinin inkişaf meyllərini, özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirmək;
- "Kitabi-Dədə Qorqud" haqqında aparılmış tədqiqatlar əsasında abidənin Azərbaycan dastanşünaslığındakı tədqiq istiqamətlərini (tədqiq tarixi, poetika məsələləri, epik-mifoloji ənənə, tarix, mətnşünaslıq, dil və s.) və inkişaf mərhələlərini izləmək;
- "Tədqiqlər"də "Koroğlu" eposu haqqında aparılmış araşdırmalar əsasında koroğluşünaslığın tədqiq tarixi, poetika, mifik-mərasimi köklər, tarixlə əlaqə, bədii dil xüsusiyyətləri və s. kimi aktual məsələlərin inkişafını izləmək;
- Qaçaq dastanları ilə bağlı aparılmış tədqiqatlar əsasında problemin inkişaf xətlərini öyrənmək;
- məhəbbət dastanları haqqında aparılmış tədqiqatlar əsasında on-ların məzmun və ideya xüsusiyyətlərini müəyyənləşdirmək;
- dastan poetikası ilə bağlı məqalələr əsasında dastan nəzəriyyəsi elminin keçən yarım əsr ərzində necə inkişaf etdiyini aydınlaşdırmaq və s.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**. İşdə tarixi-müqayisəli metod tətbiq edilmişdir. Bu ondan irəli gəlir ki, dissertasiyanın problеminin həlli ona, ilk növbədə, tarixi cəhətdən yanaşmağı tələb

etmişdir. İşin problemi Azərbaycan dastanşünaslığının yarıməsrlik dövrünü (1961-2010) əhatə edir. Bu yarım əsr Azərbaycan eposşünaslığının inkişafında mühüm tarixi mərhələdir. Tarixi yanaşma dastanşünaslığın müxtəlif mərhələlərinin biri-biri ilə müqayisəsinə əsaslanmışdır.

Mövzunun işlənməsi zamanı H.Araslı, M.H.Təhmasib, T.Hacıyev, N.Cəfərov, A.Nəbiyev, İ.Abbaslı, P.Əfəndiyev, Ş.Cəmşidov, S.P.Pirsultanlı, K.Abdulla, B.Abdulla, M.Cəfərli, F.Bayat və b. kimi Azərbaycan, O.Ş.Gökyay, B.Ögel və b. kimi türk, V.V.Bartold, V.M.Jirmunski[1] və s. kimi rus alimlərinin dastanla bağlı tədqiqatları nəzəri-metodoloji nümunə rolunu oynamışdır.

**Mövzunun öyrənilmə dərəcəsi**. Azərbaycan folklorşünaslığında “Oğuznamə”, “Kitabi-Dədə Qorqud”, “Koroğlu” kimi eposlar, o cümlədən, məhəbbət dastanlarına aid çoxsaylı tədqiqatlar yazılmışdır. Bu araşdırmalarda hər mövzunun aktual problemləri kontekstində dastanların araşdırılması məsələlərinə toxunulmuşdur. Ancaq “Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər” məcmuəsi əsasında “Azərbaycan dastanlarının araşdırılması

---

[1] Kitabi-Dədə Qorqud / Tərtib edəni və redaktoru H.Araslı. Bakı: Gənclik, 1978, 184 s.; Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 400 s.; . Hacıyev T. Dədə Qorqud: dilimiz və düşüncəmiz. Bakı: Elm, 1999, 216 s.; Cəfərov N. Eposdan kitaba. Bakı: Maarif, 1999, 220 s.; Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə / Ali məktəblər üçün dərslik. Bakı: Turan, 2002, 680 s.; Abbaslı İ. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı: Nurlan, 2007, 272 s.; Əfəndiyev P. Dastan yaradıcılığı. Bakı: ADPU, 1999, 166 s.; Cəmşidov Ş. “Kitabi-Dədə Qorqud”. Bakı: Elm, 1977, 231 s.; Pirsultanlı S.P. Azərbaycan eposunun əfsanə qaynaqları. Bakı: Azərnəşr, 2002, 163 s.; Abdulla K. Sirr içində dastan və yaxud gizli Dədə Qorqud – 2. Bakı: Elm, 1999, 288 s.; Abdulla B. Salur Qazan tarix, yoxsa mif... Bakı: Ozan, 2005, 223 s.; Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 264 s.; Bayat F. Oğuz epik ənənəsi və “Oğuz kağan” dastanı. Bakı: Sabah, 1993, 194 s.; Bayat F. Oğuz Destan Dünyası, Oğuznamlerin Tarihi, Mitolojik Kökenleri ve Teşekkülü. Ankara: Ötüken, 2006, 328 s.; Gökyay O.Ş. Dedem Korkudun kitabı. İstanbul: Milli Eğitim Basımevi, 1973, 1018 s.; Ögel B. Türk mitolojisi (Kaynakları ve Açıklamaları ile Destanlar), I cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, 644 s.; Бартольд В.В. Турецкий эпос и Кавказ / Книга моего Деда Горкуда. Огузский героический эпос. Превод В.В.Бартольда. Москва-Ленинград, 1962, с. 109-120; Жирмунский В.М. Тюркский героический эпос. Ленинград: Наука, 1974, 727 с.

problemləri” mövzusunun öyrənilməsi indiyədək heç bir monoqrafik araşdırmanın predmeti kimi götürülməmişdir.

**Dissertasiyanın elmi yenilikləri.** Tədqiqatda bir çox mühüm elmi yeniliklər əldə edilmişdir. “Tədqiqlər" məcmuəsindəki dastanşünaslıq araşdırmalarının təhlilinə əsasən, Azərbaycan folklorşünaslığında ilk dəfə olaraq:

- dastanşünaslıq araşdırmalarının tematik-statistik təhlili aparılmış və problemin yarıməsrlik dövrünü əhatə edən elmi mənzərəsi yaradılmışdır;
- məcmuədəki tədqiqatlarda arxaik türk eposu, xüsusilə Oğuznamə mövzusunun əsas xətlərdən biri olması üzə çıxarılmış, onun inkişaf istiqamətləri müəyyənləşdirilmişdir;
- “Kitabi-Dədə Qorqud” abidəsinə dair tədqiqatları əhatə edən xətt milli folklorşünaslığın əsas istiqamətlərindən biri olmuş, işdə onun keçən yarım əsr ərzində daxili təmayül xətlərinin hər biri (poetika, ənənə, epos və tarix, dil, mətnşünaslıq və s.) ayrıca öyrənilmişdir;
- orta əsrlər dastançılıq ənənəsinə dair tədqiqatların iki əsas isti-qamətdə – qəhrəmanlıq eposları (“Kitabi-Dədə Qorqud”, “Koroğlu”) və məhəbbət dastanları xətləri üzrə aparılması müəyyənləşdirilmişdir;
- milli koroğluşünaslığın daxili təmayül istiqamətinin keçən yarım əsr ərzində tədqiq tarixi, poetika, tarix, dil kimi məsələlərdən mif və ritual istiqamətinə yönləndiyi aşkar edilmişdir;
- məhəbbət dastanlarına dair tədqiqatlarda keçən yarım əsr ərzin-də sosioloji yanaşmadan təsəvvüfi-irfani yanaşmaya doğru inkişaf yolu bir təmayül xətti kimi aşkar edilərək öyrənilmişdir;
- dastanşünaslıq araşdırmalarının nəzəri cəhətdən mürəkkəbləşməsi, dünya eposşünaslıq elminin uğurlarını özündə əks etdirməklə bərabər, Azərbaycan-türk dastançılıq ənənəsinin poetik özünəməxsusluğunun müəyyənləşdirilməsinə meyllənməsi üzə çıxarılmışdır;
- XX əsrin sonlarına doğru “dastan və milli tarixi həqiqətlər” mövzusunun aparıcı xətt olaraq özünü təsdiq etməsi, bu xəttin,

əsasən, Azərbaycan, həmçinin də gürcü, erməni qaynaqları ilə bağlı olması müəyyənləşdirilmişdir və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, bu işdə "Tədqiqlər" məcmuəsi əsasında Azərbaycan dastanşünaslığının yarıməsrlik dövrünün çox böyük bir araşdırmalar silsiləsi elmi-nəzəri baxımdan ümumiləşdirilmişdir. Əldə olunmuş nəticə və yeniliklər folklorşünaslığın digər sahələrinin müəyyən dövrlər üzrə ümumnəzəri tədqiqi üçün metodiki təcrübə, nəzəri qaynaq, təhlil və təsvir nümunəsi kimi faydalı olar.

Dissertasiya problematikasına görə folklorşünaslıq tarixinə aid əsərdir. Bu baxımdan, işdən ali məktəblərin filologiya fakültələrində həm folklorşünaslığın tədrisinə dair köməkçi vəsait, həm də dastanşünaslığa dair kurslarda əsas vəsait kimi faydalanıla bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Klassik folklor" şöbəsində yerinə yetirilmişdir. Tədqiqat zamanı əldə olunan elmi yeniliklər, əsas fikir, mülahizə və qənaətlər müəllifin ölkəmizdə və xaricdə nəşr olunan profil elmi orqanlarda çap etdirdiyi məqalələrdə əhatə olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Tədqiqat giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**"Giriş"də** mövzunun aktuallığı, obyekti və predmeti, məqsəd və vəzifələri, öyrənilmə dərəcəsi, elmi yenilikləri, nəzəri-metodoloji əsas-ları, nəzəri əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında danışılır.

Dissertasiyanın **"Tədqiqlər"də qədim türk eposu problemləri"** adlanan birinci fəslində məcmuədəki dastanşünaslıq araşdırmalarının tematik-statistik təsviri, arxaik türk dastanları və "Oğuznamə ənənəsi", "Kitabi-Dədə Qorqud" oğuznamələri kimi məsələlər öyrənilmişdir.

Birinci fəslin *"Tədqiqlər" məcmuəsindəki dastanşünaslıq araşdırmalarının tematik-statistik təsviri"* adlanan birinci yarımfəsildə məcmuədə dastanla bağlı 120-dən artıq məqalələr

müəyyənləşdirilmiş, onlardan birbaşa epos problemləri ilə bağlı olanlar seçilmişdir. Ümumiyyətlə, məcmuədə folklorun digər problemləri ilə bağlı olub, həm də dastan janrına toxunan məqalələr kifayət qədərdir.

Müşahidələr təsdiq edir ki, "Tədqiqlər"in xatırladılan saylarında işıq üzü görmüş material, əslində, Azərbaycan dastanşünaslığının əsas bazasını təşkil edir. Çünki məcmuə keçən müddət ərzində beynəlxalq indekslə müntəzəm nəşr olunmaqla bərabər, həm də folklor üzrə çox nüfuzlu elmi qaynaq sayılmışdır.

"Tədqiqlər", eyni zamanda, Azərbaycan tarixinin sovet epoxası və müstəqillik dövrünü əhatə edir. Burada maraqlı mənzərə müşahidə olunur. "Tədqiqlər"in 30 illik sovet dönəmində cəmi yeddi kitabı çap-dan çıxmışdır[2]. Məcmuənin 24 nömrəsi isə 1999-2010-cu illərdə işıq üzü görmüşdür[3].

"Tədqiq"lərin I-XXXI saylarında dastanşünaslıqla bağlı çap olunmuş araşdırmaları mövzu baxımından aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1. Qədim türk eposu haqqında;
2. Oğuznamə haqqında;
3. "Kitabi-Dədə Qorqud" haqqında: a) tədqiq tarixi; b) poetika məsələləri; c) epik-mifoloji ənənə; ç) tarix; d) mətnşünaslıq və dil;
4. "Koroğlu" dastanı haqqında: a) tədqiq tarixi; b) poetika məsələləri; c) mif və mərasim; ç) tarix və dil;
5. Qaçaq dastanları haqqında;
6. Məhəbbət dastanları haqqında: a) ayrı-ayrı məhəbbət dastanları; b) poetika məsələləri;
7. Dastançılığın nəzəri-poetik məsələləri: a) tədqiqatçılar; b) Azərbaycan dastanları erməni mənbələrində; c) dastan poetikası; ç) məhəlli xarakterli dastanlar; d) termin və anlayışlar; e) təsnifat məsələləri

Birinci fəslin *"Arxaik türk dastanları və Oğuznamə ənənəsi"* adlanan ikinci yarımfəsildə dastan yaradıcılığının mənşəyi,

---

[2]Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. № 1-7. Bakı, 1961, 1966, 1968, 1973, 1977, 1981, 1987

[3] Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. № 8-31. Bakı, 1999-2010

dastanların arxaik kökləri, qədim dastançılıq ənənəsi kimi məsələlər diqqət mərkəzində olmuşdur. Tədqiqatların[4] təhlili göstərir ki, Azərbaycan folklorşünasları milli dastanlarımızı tədqiq edərkən onların mənşəyi və formalaşması məsələsini heç vaxt diqqətdən kənarda saxlamamışlar. Bəllidir ki, milli dastançılıq ənənəsinin istənilən nümunəsinin əsl poetik dəyərini vermək üçün onları arxaik və qədim türk dastançılıq ənənəsi baxımından tarixi-müqayisəli şəkildə öyrənmədən obyektiv, etibarlı nəticələr almaq mümkün deyildir. Tədqiqatlarda arxaik və qədim dövr türk dastançılıq ənənəsinin əsas bazası – "Yaradılış", "Alp Ər Tonqa", "Oğuz Kağan", "Atilla", "Bozqurd", "Göy türk", "Ərkənəkon", "Şu", "Siyenpi", "Köç" və s. kimi mifoloji-epik, mənqəbə-dastan tipli mətnlərin, demək olar ki, hamısı araşdırmaya cəlb olunmuşdur.

Tədqiqatlarda təhlil yolu ilə belə bir nəzəri yanaşma özünü təsdiq etmişdir ki, Azərbaycan qəhrəmanlıq və məhəbbət dastanlarının, ümumiyyətlə, milli dastançılıq ənənəsinin istənilən nümunəsinin əsl poetik dəyərini vermək üçün onları arxaik və qədim

[4] Abbaslı İ. Midiya-Aran mədəniyyətinin folklor qaynaqları. Mənqəbə-dastan yaradıcılığı və onların məzmun çalarları // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XV kitab. Bakı: Səda, 2004, s. 55-67; Abbaslı İ. Qədim türk eposu: mənqəbələr və dastanlar // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVI kitab. Bakı: Səda, 2005, s. 19-29; İsmayılov H. Qədim və orta əsrlər türk dastan ənənələri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXI kitab. Bakı: Səda, 2006, s. 3-14; Əsgər Ə. Rəşidəddin Oğuznaməsi: şifahi ənənə və müəllif mətni / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXIII kitab. Bakı: Nurlan, 2007, s. 54-63; Əsgər Ə. Arxaik epik ənənə və Oğuznamə / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXV kitab. Bakı: Nurlan, 2007, 3-9; Əsgər Ə. Oğuznamələrdə müsəlman-oğuz və oğuznamələrin yaranması problemi / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXVI kitab. Bakı: Səda, 2007, s. 24-37; Əsgər Ə. Oğuznamələrdə epik hakimin transformasiyası / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXVIII kitab. Bakı: Nurlan, 2009, s. 83-88; Rzasoy S. Oğuznamə eposu Oğuz mifinin transformativ paradiqmalar sistemi kimi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVI kitab. Bakı: Səda, 2005, s. 103-109; Abbasov E. Oğuz eposunun tarixiliyinə dair ("Oğuz Kağan», KDQ, "Koroğlu") // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. X kitab. Bakı: Səda, 2001, s. 92-100 və s.

türk dastançılıq ənənəsi baxımından tarixi-müqayisəli şəkildə öyrənmədən obyektiv, etibarlı nəticələr almaq mümkün deyildir.

“Tədqiqlər”də Azərbaycan dastanlarının əsas mənbəyini təşkil edən “Oğuznamə” ənənəsinə xüsusi maraq göstərilməsi milli dastançılıq ənənəsinin inkişaf tarixi baxımından özünü təsdiq edən tədqiqat təmayülüdür.

Birinci fəslin *“Kitabi-Dədə Qorqud» oğuznamələri”* adlanan üçüncü yarımfəslində abidənin tədqiq tarixi, poetikası, mətnşünaslıq, tarixilik və dil məsələlərindən bəhs olunur. “Tədqiqlər”də Azərbaycan dastanlarına dair araşdırmalar içərisində “Kitabi-Dədə Qorqud” oğuznamələri haqqında məqalələr sayına və məzmununa görə sanballı yer tutur. Sayı 40-a çatan araşdırmalar mövzu baxımından KDQ-nin tədqiq tarixi (3 məqalə,), poetikası (17 məqalə), özünəqədərki və sonrakı epik ənənə ilə əlaqəsi (9 məqalə), tarixlə bağlılığı (3 məqalə), mətnşünaslıq və dil (8 məqalə) məsələlərini əhatə edir. Abidənin tədqiq tarixi ilə bağlı məqalələrin sayı nisbətən azdır (3 məqalə).

Birinci fəslin üçüncü yarımfəsli *KDQ-nin tədqiq tarixi* adlanır. “Tədqiqlər”də abidənin tədqiq tarixi ilə bağlı məqalələrin sayı nisbətən azdır: 3 məqalə. Lakin burada bir amilə diqqət verilməlidir. Birincisi, “Tədqiqlər”də KDQ-nin müxtəlif sahə problemlərinə həsr olunmuş tədqiqatlarda yeri gəldikcə hər sahənin tədqiq tarixinə də toxunulmuş, mövzunun nə dərəcədə öyrənilməsi ilə bağlı olaraq əvvəlki araşdırmalardan da söhbət açılmışdır. Lakin həmin məqalələr sırf tədqiq tarixinə həsr olunmadığı üçün biz onları bağlı olduğu sahə mövzuları üzrə təhlilə cəlb etməyi daha münasib hesab etdik. KDQ-nin tədqiq tarixi adına o məqalələr seçildi ki, bunlar sırf bu mövzu ilə bağlıdır. Məqalələrdən ikisi KDQ-nin məşhur tədqiqatçılarından Əmin Abid və Həmid Araslının fəaliyyətinə, biri abidənin qərbli tədqiqatçılarına həsr olunmuşdur.

Birinci fəslin üçüncü yarımfəslinin *“KDQ-nin poetikası”* adlanan bəndində qeyd olunur ki, “Tədqiqlər”də KDQ ilə əlaqədar poetika məsələləri kəmiyyət və məzmun baxımından çoxluq təşkil edir (17 məqalə). Abidəyə bu marağın səbəbləri Yaşar Qarayevin “Bütün xalqların və dövrlərin kitabı” adlı məqaləsində belə izah olunur: “Min üç yüz ildir ki, Qorqud xalqın qan və gen yaddaşı kimi

yaşayır və özündən əvvəlki min üç yüz ilin də bədii və genetik arxetipini hər sətrində, hər sözündə yaşadır. Üstəlik, növbəti, min üç yüz il üçün də ən sabit, etibarlı, mənəvi-əxlaqi kodlar və genlər yenə bu "ana kitabın" bətnində və ruhunda qorunub saxlanır. Müstəqillikdə minillik və əbədilik üçün əsaslar, xalqlarla kültürlər, yer və göy, torpaq və millət, təbiət və ekologiya arasında davranış və rəftar kodeksi, qanun və ana yasa... – hamısı, hamısı öz əksini bu kitabda tapır"[5].

KDQ-nin tanınmış tədqiqatçılarından olan M.H.Təhmasibin məcmuənin 1-ci və 2-ci kitablarında çap olunmuş məqalələri, əslində, abidənin poetikası haqqında bütün məsələləri əhatə edən vahid bir əsər kimi diqqəti çəkir[6]. B.Abdullanın KDQ-nin poetikası ilə bağlı yazıları isə mifik dağ-dərə obrazları, "işıq" ifadəsi və rəng simvolikası məsələləri ilə bağlıdır[7]. "Tədqiqlər"də KDQ-nin poetikası ilə bağlı məqalələr təsdiq edir ki, Azərbaycan qorqudşünaslığı zaman keçdikcə daha dərin və mürəkkəb problemlərin həllinə yönlənmişdir.

Birinci fəslin üçüncü yarımfəslinin *"KDQ və ənənə"* adlanan üçüncü bəndində "Tədqiqlər"də KDQ-nin mifoloji, epik və ədəbi ənənə ilə əlaqəsini araşdıran 9 məqalə barədə söz açılır. Bu məqalələrdə abidənin özündən əvvəlki ənənə ilə əlaqəsi, özündənsonrakı dastançılıq və ümumədəbi ənənəyə təsiri və s. kimi məsələlər çox mürəkkəb, çoxşaxəli istiqamətlərdə təhlil olunmuşdur. Müəlliflər təkcə genetik bağları yox, həm də tipoloji əlaqələri araşdırmışlar. Onlar KDQ-nin milli dastançılıq və ədəbi ənənəyə bağlı əlaqələri ilə yanaşı, eyni zamanda dünya xalqlarının dastan və

---

[5] Qarayev Y. Bütün xalqların və dövrlərin kitabı // "Tədqiqlər". X kitab. Bakı: Səda, 2001, s. 4-10

[6] Təhmasib M.H. "Dədə Qorqud" boyları haqqında // "Tədqiqlər". I kitab. Bakı: Az SSR EA Nəşriyyatı, 1961, s. 4-51; Təhmasib M.H. "Dədə Qorqud" boyları haqqında (II məqalə) // "Tədqiqlər". II kitab. Bakı: Az SSR EA Nəşriyyatı, 1966, s. 5-29

[7] Abdulla B. "Kitabi-Dədə Qorqud"da gerçəkliyin etnomifik qavrayışı (dağ və dərə motivi) // "Tədqiqlər". VIII kitab. Bakı: Səda, 1999, s. 35-49; Bir daha "Kitabi-Dədə Qorqud"dakı "işıq" haqqında // "Tədqiqlər". X kitab. Bakı: Səda, 2001, s. 130-142; "Kitabi-Dədə Qorqud"da rəng simvolikası // "Tədqiqlər". XI kitab. Bakı: Səda, 2002, s. 74-82

ədəbi ənənələri ilə, beynəlxalq səyyari süjetlərlə əlaqələrinə tipoloji aspektdə də nəzər salaraq çox maraqlı paralellər aparmış, qiymətli elmi nəticələr əldə etmişlər.

Birinci fəslin üçüncü yarımfəslinin *"KDQ və tarix"* adlanan dördüncü bəndində "Təqiqlər"də istər qorqudşünaslıqda, istər folklorşünaslıqda, istərsə də tarixşünaslıqda aktual olan bir problemə – "Dədə Qorqud" eposunun milli tarixlə bağlılığına həsr olunmuş 3 məqalə təhlil olunub dəyərləndirilmişdir[8]. Bu tədqiqatlar abidənin bir tərəfdən Azərbaycanın qədim tarixinə bağlılığını, oğuzların, ümumiyyətlə, qədim türklərin Azərbaycanın yerli xalqı olduğunu sübut etdiyi kimi, KDQ eposunun Azərbaycan tarixinin ən qədim və etibarlı qaynağı olduğunu da təsdiq edir.

Birinci fəslin üçüncü yarımfəslinin *"KDQ-nin mətnşünaslıq və dil məsələləri"* adlanan beşinci bəndində KDQ-nin ulu bir dastan kimi, sözsüz ki, qədim oğuz-türk dilinin misilsiz abidəsi olduğu vurğulanmışdır. Dastanın Azərbaycan dili tarixinin öyrənilməsi baxımından rolu heç nə ilə müqayisə olunmur. Dilçi alimlər KDQ-ni əsas götürməklə qədim və orta əsrlər Azərbaycan dili haqqında çoxsaylı əsərlər yazmışlar. Bu cəhətdən "Tədqiqlər"də KDQ-nin dili, mətnşünaslıq məsələləri ilə bağlı 8 məqaləyə rast gəlirik. Bu araşdırmaların təhlili göstərir ki, Azərbaycan qorqudşünaslığında KDQ-nin məntşünaslıq problemləri daim diqqətdə olmuş, eposun nəşri ilə ona dair mətnşünaslıq araşdırmaları yanaşı aparılmış, mətnşünaslığın nəzəriyyəsi ilə praktikası biri-birini tamamlamışdır. Azərbaycanda KDQ mətnşünaslığı ilə bağlı aparılmış tədqiqatlar artıq beynəlxalq səciyyə kəsb etmiş, Azərbaycan qorqudşünaslığı dünya qorqudşünaslığının mərkəzi halına gəlmişdir.

Dissertasiyanın **"Tədqiqlər"də qəhrəmanlıq və məhəbbət das-tanları haqqında araşdırmalar"** adlanan ikinci fəslində müəyyənləş-dirilmişdir ki, məcmuədə milli dastançılığın inkişaf tarixinə bütöv şəkildə yanaşılmış, bu tarix ən qədim dövrlərdən

[8] Təhmasib M.H. Bir tarixi həqiqətin eposdakı izləri // "Tədqiqlər". VI kitab. Bakı: Elm, 1981, s. 3-19; Hacıyev T. "Kitabi-Dədə Qorqud"u islam qoruyub saxladı // "Tədqiqlər". X kitab. Bakı: Səda, 2001, s. 208-219; İsmayılov H. Ulu Qorqud diyarı – Göyçə // "Tədqiqlər". X kitab. Bakı: Səda, 2001, s. 52-73

bugünə qədər izlənilməyə çalışılmışdır. Bu mövzuda aparılmış araşdırmalar üç elmi isti-qaməti əhatə edir:

1. Qəhrəmanlıq dastanları;
2. Qaçaq dastanları;
3. Məhəbbət dastanları.

Sözügedən araşdırmalar 43 məqalədən ibarətdir. Onlar içərisində sayca ən çoxu (28 məqalə) "Koroğlu" dastanı ilə bağlıdır.

İkinci fəslin birinci yarımfəsli *"Koroğlu" dastanı* adlanır. "Tədqiqlər"də "Koroğlu" dastanı ilə bağlı araşdırmalar mövzu baxımından rəngarəngdir. Toplam 28 məqalədən 15-i məcmuənin ayrıca olaraq "Koroğlu" dastanına həsr olunmuş 29-cu sayında verilmişdir. Məcmuədə "Koroğlu" haqqındakı bütün məqalələri mövzusuna və məqalələrin sayına görə aşağıdakı təsnifatını aparmaq olar:

1. Dastanın tədqiq tarixi – 8 məqalə;
2. Dastanın poetika məsələləri – 14 məqalə;
3. Dastanda mif və ritual – 4 məqalə;
4. Dastanın tarixlə əlaqəsi və dili – 2 məqalə.

İkinci fəslin birinci yarımfəslinin *"Nəşr və tədqiq tarixi"* adlanan birinci bəndində göstərilir ki, "Koroğlu" dastanının tədqiq tarixi ilə bağlı məqalələr eposun nəşri və tərcümə tarixi, ayrı-ayrı tədqiqatçıların bu sahədəki fəaliyyəti, koroğluşünaslığın inkişaf istiqamətləri və s. kimi məsələləri əhatə edir. Dastanın nəşri və tədqiqi tarixi iki dövrə bölünür: sovet dönəmi və müstəqillik dövründə aparılmış tədqiqatlar. Aparılmış tədqiqatlar formal xarakter daşımamış, onlarda dastanın nəşr və tədqiq tarixinin, demək olar ki, bütün məsələləri əhatə olunmuş, ayrı-ayrı variantlar, onların toplayıcı və tərtibçilərinin fəaliyyəti, mətnlərin poetik xüsusiyyətləri və s. kimi məsələlərə diqqət verilmişdir.

İkinci fəslin birinci yarımfəslinin *"Poetika məsələləri"* adlanan ikinci bəndində "Koroğlu" dastanının poetikası ilə bağlı yazılar (14 məqalədən ibarətdir) Azərbaycan epik düşüncəsinin bu nəhəng abidəsinin poetika cəhətdən cazibədarlığını nümayiş etdirir. "Koroğlu" dastanının poetikasının müxtəlif məsələlərinə həsr olunmuş yazılar Azərbaycan epos tarixinin "Kitabi-Dədə Qorqud"dan sonra ən böyük abidəsi və mərhələsi olan "Koroğlu"nun

Azərbaycan folklor düşüncəsinin, demək olar ki, bütün janrları ilə bağlı olduğunu üzə çıxarmaqla bərabər, onun dastan-epopeya şəklinə düşməzdən əvvəl əsatir, əfsanə, rəvayət mərhələlərindən keçdiyini göstərmişdir.

İkinci fəslin birinci yarımfəslinin *"Mif və ritual"* adlanan üçüncü bəndində "Koroğlu" dastanında mif və ritualla bağlı araşdırmaya cəlb olunmuş məqalələr (4 məqalə) dastanların miflərlə əlaqəsi məsələlərinin həmişə aktual mövzu olduğunu təsdiqləyir. Bu yazıların təhlili göstərir ki, Azərbaycan dastançılıq ənənəsinin KDQ-dən sonrakı dövrünün əsas abidəsi olan "Koroğlu" dastanı eynilə öz "sələfi" KDQ kimi xalqımızın düşüncə tarixinin mifik mərhələsi ilə sıx bağlıdır. "Tədqiqlər"də çap olunmuş məqalələr dastandakı mifik görüşlərin mifik-mərasimi görüşlər olduğunu, yəni mifin və ritualın birgəliyini meydana çıxarmışdır.

İkinci fəslin birinci yarımfəslinin *"Tarix və dil"* adlanan dördüncü bəndində "Koroğlu" dastanının tarix və dillə əlaqəsi haqqında yazılmış məqalələr təhlil olunmuşdur. Ə.Ələkbərlinin məqaləsində "Koroğlu" dastanında İrəvan vilayəti ilə bağlı obraz və motivlərin özünə yer tapmasından söz açılır. Müəllif "Koroğlu" dastanında baş verən hadisələrin Qafqazla, xüsusilə Azərbaycanla bağlılığı haqqında yazılanları kafi hesab etməyərək, öz mövqeyini belə əsaslandırır ki, koroğluşünaslığın meydana gəldiyi, inkişaf etdiyi dövrün (XIX-XX yüzillər) Azərbaycan ölkəsi hüdudları dastanın yarandığı dövrün (XVI-XVII yüzillər) Azərbaycan ölkəsi hüdudları ilə kəskin şəkildə fərqlənir, bu zaman kəsimində Azərbaycanın bir sıra tarixi torpaqları yadellilər tərəfindən işğal olunmuş və həmin torpaqlardan Azərbaycan-türk izləri artıq xeyli dərəcədə silinmişdir[9].

"Tədqiqlər" bir məcmuə-jurnal olsa da, Azərbaycan ölkəsində folklora dair əsas elmi nəşrlərdəndir. Bu üzdən "Tədqiqlər" məcmuəsində "Koroğlu" dastanına geniş yer verilməsi, əslində, Azərbaycan folklorşünaslığında bu dastanın əsas tədqiq obyektlərindən biri olması ilə bağlıdır.

---

[9] Ələkbərli Ə. "Koroğlu" dastanı və tarix: İrəvan vilayəti ilə bağlı obraz və motivlər // "Tədqiqlər". XXIX kitab. Bakı: Nurlan, 2009, s. 68;

E.Hüseynovun "Koroğlu" dastanının Paris nüsxəsindəki toponimlərin tədqiqinə həsr olunmuş məqaləsi isə zahirən dil tədqiqatı olsa da, əslində, etnik tariximizin dildəki mənzərəsini nümayiş etdirir[10].

İkinci fəslin *"Qaçaq dastanları"* adlanan ikinci yarımfəslində qədim və orta əsrlərdən üzü bəri "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi nəhəng dastanların qəhrəmanlıq ənənəsini davam etdirən qaçaq dastanlarından söhbət gedir. "Tədqiqlər"dəki ayrı-ayrı məqalələrdə qaçaq dastanlarına ötəri şəkildə toxunulsa da, sırf bu mövzuya həsr olunmuş iki məqaləyə təsadüf edilir[11]. Bu yazıların təhlili göstərir ki, sovet dövrü folklorşünaslığında XIX əsr qaçaq hərəkatı və qaçaq dastanları daha çox sovet ideologiyası baxımından səciyyələndirilsə də, müstəqillik dövrü araşdırmalarında qaçaq dastanlarının qədim və orta əsrlər qəhrəmanlıq ənənəsi ilə əlaqəsi, həmin ənənənin yeni dövrdə qaçaq dastanlarında yaşaması, o cümlədən klassik ənənələrin yeni dövrdə dəyişmə xüsusiyyətləri və s. kimi məsələlər diqqət mərkəzində olmuşdur.

İkinci fəslin *"Məhəbbət dastanları"* adlanan üçüncü yarımfəslində müəyyənləşdirilmişdir ki, məcmuədə sırf məhəbbət dastanları ilə bağlı məqalələri mövzu baxımından iki qrupa ayırmaq mümkündür:

Ayrı-ayrı məhəbbət dastanlarına həsr olunmuş yazılar (8 məqalə);

Ümumiyyətlə, məhəbbət dastanlarının poetikasından bəhs edən yazılar (5 məqalə).

İkinci fəslin üçüncü yarımfəslinin *"Müxtəlif məhəbbət dastanları"* adlanan birinci bəndində qeyd olunur ki, "Tədqiqlər" məcmuəsində müxtəlif məhəbbət dastanlarına həsr olunmuş 8 məqalədən 4-ü "Aşıq Qərib" dastanına, qalanları "Əsli-Kərəm", "Aşıq Alının

---

[10] Hüseynov E. "Koroğlu" dastanındakı (Paris nüsxəsi) toponimlər haqqında // "Tədqiqlər". XXIX kitab. Bakı: Nurlan, 2009, s. 157-162

[11] Abbaslı İ. "Qaçaq Nəbi" dastanı və Bəhlul Bəhcətin "Qaçaq Nəbinin tarixi" araşdırması // "Tədqiqlər". XVIII kitab. Bakı: Səda, 2005, s. 15-26; Səfərəliyeva A. "Molla Nur" rus ədəbiyyatında // "Tədqiqlər. XXI kitab. Bakı: Səda, 2006, s. 135-142

Türkiyə səfəri", "Aşıq Musa və Mələknisə xanım" və "Abbas-Gülgəz" dastanlarına həsr olunmuşdur. Bu yazıların təhlilindən aydın olmuşdur ki, "Tədqiqlər"də Azərbaycan məhəbbət dastanları fondunun əsas abidələri araşdırmaya cəlb olunmuşdur.

İkinci fəslin üçüncü yarımfəslinin *"Məhəbbət dastanlarının poetikası"* adlanan ikinci bəndində qeyd olunur ki, məhəbbət dastanları ilə bağlı çap olunmuş yazılardan bir qrupu ümumiyyətlə məhəbbət dastanlarının poetikasına həsr olunmuşdur. Bu araşdırmalar ümumiyyətlə Azərbaycan folklorşünaslığında məhəbbət dastanlarının poetikasının tədqiqinin nəzəri cəhətdən yüksəldiyini təsdiq edir. Bu yüksəliş ilk növbədə sovet dönəmində yasaq qoyulmuş bir sıra mövzuların müstəqillik dövründə aktuallaşması ilə əlaqədardır. Dövlət müstəqilliyi məhəbbət dastanlarını ilk dəfə olaraq milli düşüncənin qorunduğu yaddaş xəzinə-si, milli ideyaların qaynağı kimi tədqiq etməyə imkan verir. Belə ki, sovet dönəmində dastanlarda din, sufizm, irfan kimi məsələlərin tədqiqi ya qadağan idi, ya da bu mövzular vulqar sosioloji baxımdan öyrənilirdi. Məhəbbət dastanlarının bütün ideya-məzmun xüsusiyyətləri Allah, Quran, Haqq, ilahi vergi, buta və s. kimi dini-təsəvvüfi ideya və obrazlarla bağlı olduğu halda, sovet dövrü araşdırmalarında tədqiqatçılara bu məsələlərlə məşğul olmağa, demək olar ki, imkan verilmirdi. Lakin müstəqillik dövründə bu qadağalar aradan qalxdı və tədqiqatçılar bu mövzulara xüsusi diqqət göstərməyə başladılar. "Tədqiqlər"də məhəbbət dastanlarının poetikası ilə bağlı çap olunmuş 5 məqalədən 4-nün bilavasitə məhəbbət dastanlarında ilahi eşq, haqq vergisi, butavermə, sufi ideyaların dastan mətnində həqiqət və sənətin vəhdətinin əsasında durması və s. Mövzularla bağlı olması bunun əyani sübutudur.

**"Tədqiqlər"də dastançılıq ənənəsinin öyrənilməsi istiqamətləri"** adlanan son fəsildə müəyyənləşdirilmişdir ki, məcmuədəki yazıların əhəmiyyətli bir hissəsi dastançılıq ənənəsinin nəzəri problemlərini əhatə edir. Bu yazılar ayrı-ayrı folklor mühitlərindəki dastanyaratma ənənəsinə, dastanın mətn poetikasının müxtəlif məsələlərinə, dastanşünaslıqda termin məsələlərinə, dastanların təsnifatı məsələlərinə, o cümlədən Azərbaycan dastanlarının erməni folkloru və ədəbiyyatına təsiri məsələsinə həsr olunmuş 25

məqalədən ibarətdir. Onlar elmi-nəzəri istiqamətlərinə görə belə qruplaşdırılmışdır:

1) Dastanşünaslığın nəzəri məsələləri;

2) Dastan və tarixi- milli ənənələr.

Üçüncü fəslin *"Dastanşünaslığın nəzəri məsələləri"* adlanan birinci yarımfəslində dastanşünaslığın nəzəri məsələləri ilə bağlı məqalələr mövzu, məzmun və mündəricə baxımından izlənilmişdir. Toplam 19 məqalədən ibarət olan bu materialı mövzusuna və məqalələrin sayına görə: – məhəlli xarakterli dastanlar (4 məqalə); dastanların mətnşünaslıq məsələləri (6 məqalə); dastanşünaslıqda termin və anlamlar (2 məqalə); dastanların təsnifatı (7 məqalə) – kimi qruplaşdırmaq mümkündür. Bu təsnifat sistemli şəkildə nəzərdən keçirilmişdir.

Üçüncü fəslin birinci yarımfəslinin *"Məhəlli xarakterli dastanlar"* adlanan birinci bəndində məhəlli xarakterli dastanyaratma ənənəsinə həsr olunmuş 4 məqalə (Şirvan dastanyaratma ənənəsinə aid 3, Göyçə dastançılıq ənənəsinə aid isə 1 məqalə) elmi-nəzəri təhlil süzgəcindən keçirilmişdir[12].

Üçüncü fəslin birinci yarımfəslinin *"Dastanların mətnşünaslıq məsələləri"* adlanan ikinci bəndində məcmuədə yer alan dastanların mətnşünaslıq məsələləri ilə bağlı məqalələrin nəticələri şərh olunmuşdur. Bu yazılara ümumi nəzər göstərir ki, onları birləşdirən eyni cəhət yazıların təkcə ortaq bir problemə aid olması deyildir. Bu yazılar ilk növbədə müasirliyi, dastan mətninin yeni mövzular, yeni problemlər baxımından öyrənilməsi ilə əlamətdardır[13]. Müşahidələr

---

[12]Qəniyev S. Şirvan aşıq mühitində dastançılıq ənənəsi // "Tədqiqlər". XX kitab. Bakı: Səda, 2006, s. 63-74; Mirzə A. Şirvanda dastançılıq ənənələri (tipoloji və regional ifaçılıq aspektindən) // "Tədqiqlər". XXI kitab. Bakı: Səda, 2006, s. 29-38; Maxsudova L. Şirvan dastançılıq ənənəsi: "Koroğlunun Şirvan səfəri" // "Tədqiqlər". XIX kitab. Bakı: Səda, 2006, s. 182-191; İsmayılov H. Göyçə dastanlarının janr spesifikası və təsnifat prinsiplərinə dair // "Tədqiqlər". XIII kitab. Bakı: Səda, 2002, s. 135-140

[13] Allahmanlı M. Dastanlarda qəhrəman tipologiyası, bahadır və sənətkar problemi // "Tədqiqlər". X kitab. Bakı: Səda, 2001, s. 84-91; İsmayılov H. Türk dastanlarının funksional struktur poetikasına dair (Göyçə dastanları əsasında) // "Tədqiqlər". XIX kitab. Bakı: Səda, 2006, s. 3-16; Əliyev R. Rəvayət-dastanlarda kontaminasiyalar haqqında // "Tədqiqlər". XVI kitab. Bakı: Səda, 2005, s. 128-

belə bir nəticə doğurmuşdur ki, "Tədqiqlər"də çap olunmuş məqalələrdə dastan poetikası məsələləri üç istiqamətdə özünü göstərmişdir:

1) Dastan mətninin funksional struktur, obraz və süjet poetikası;

2) Dastan mətninin mifoloji poetikası;

3) Dastan mətninin mənəvi-əxlaqi dəyərlər kontekstinə əsaslanan poetikası.

Üçüncü fəslin birinci yarımfəslinin *"Dastanşünaslıqda termin və anlamlar"* adlanan üçüncü bəndində qeyd olunur ki, dastanşünaslıqla bağlı anlayış və onları əks etdirən terminlərin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bu cəhətdən İ.Abbasovun (Abbaslının) araşdırmasında "ozan (uzan) – qusan" termini tarixi-mədəni baxımdan təhlil olunmuş[14], H.İsmayılovun məqaləsində isə "dastan" anlayışı tarixi-mədəni kateqoriya kimi öyrənilmişdir[15].

Üçüncü fəslin birinci yarımfəslinin *"Dastanların təsnifatı"* adla-nan dördüncü bəndində göstərilir ki, "Tədqiqlər"də qeyd olunan bu məsələ ilə bağlı 7 məqaləyə rast gəlirik. Bu araşdırmaların təhlili göstərdi ki, dastanların təsnifatı təkcə Azərbaycan dastanları ilə bağlı deyil, ümumiyyətlə türk və dünya xalqlarının eposları ilə əlaqədar çox mühüm bir işdir. Əslində, dastanların təsnifatını aparmadan epik sistemi obyektiv şəkildə öyrənmək mümkün deyil. Azərbaycan dastanşünaslığında ayrı-ayrı tədqiqatçılar müxtəlif zamanlarda dastanların təsnifatı ilə bağlı bu və ya digər bölgülər təklif etsələr də, onların içərisində əsas yeri M.H.Təhmasibin bölgüsü tutur. F.Bayat tərəfindən təklif olunmuş dastan təsnifatı məhəlli variantları (ayrı-ayrı türk xalqlarının milli dastanlarını) yox, bütün türk xalqlarının dastanlarını əhatə edir.

---

142; Xalq dastanlarında mifoloji mətnlər // "Tədqiqlər". XVIII kitab. Bakı: Səda, 2005, s. 69-81; Əlizadə R. Dastanlarda ağaca pərəstişlə bağlı inamlar // "Tədqiqlər". XVIII kitab. Bakı: Səda, 2005, s. 135-138

[14] Abbasov İ. Ozan (uzan) – qusan istilahı və sənətinə dair // "Tədqiqlər". III kitab. Bakı: Elm, 1968, s. 59-70

[15] İsmayılov H. Dastan, yaxud türk kodu ilə şifrələnmiş işarələr sistemi // "Tədqiqlər". XVIII kitab. Bakı: Səda, 2005, s. 3-14

Üçüncü fəslin *"Dastan və tarixi-milli ənənələr"* adlanan ikinci yarımfəslində göstərilir ki, folklor şifahi xalq yaradıcılığı olsa da, o, xalqın tarixi ilə sıx bağlıdır. Tarixlə bağlılıq xüsusilə dastanlar üçün aktualdır. Dastan folklorun elə bir janrıdır ki, onun məzmunu bütün bədii çalarlarına, ondakı obrazlar bütün bədii cəhətlərinə baxmayaraq, tarixlə – gerçəkliklə qırılmaz tellərlə bağlıdır.

Üçüncü fəslin ikinci yarımfəslinin *"Azərbaycan dastan ənənələri erməni folklorunda"* adlanan birinci bəndində deyilir ki, məcmuədə bu istiqamətdəki məqalələrin əksəriyyəti (5 məqalə) İ.Abbaslıya məxsusdur. Erməni folklorunda Azərbaycan dastan ənənələri problemini uzun onilliklər ərzində araşdıran tədqiqatçının bu mövzuda axtarışları keçən əsrin 60-70-ci illərindən başlanmış və bugünə qədər davam etməkdədir. Müəllifin "Azərbaycan dastanlarının erməni dilinə tərcümə, təbdil və nəşri məsələlərinə dair" məqaləsi çoxlu faktlarla zəngin olan irihəcmli tədqiqatdır[16]. İ.Abbaslı "Azərbaycan qəhrəmanlıq dastanlarının erməni dilinə tərcümə, təbdil, nəşri tarixi və tədqiqi məsələləri" adlı digər məqaləsində göstərir ki, erməni dilinə təbdil-tərcümə olunmuş xalq romanları içərisində tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları mühüm yer tutur. İ.Abbaslının "Nahabet Quçaq və Azərbaycan folkloru" məqaləsi Azərbaycan dastan düşüncəsinin tarixi-milli ənənələrinin erməni folklor düşüncəsinə təsiri probleminə həsr olunmuşdur[17].

Azərbaycan folkloru, o cümlədən dastanları təkcə erməni folkloruna yox, həm də erməni yazılı ədəbiyyatının inkişafına çox böyük təsir etmişdir. Y.Ramazanovun "X.Abovyan yaradıcılığında Azərbaycan xalq dastanlarının mövqeyi" məqaləsi bu məsələnin öyrənilməsinə həsr olunmuşdur[18]. Azərbaycan dastan ənənələri erməni folklorunda mövzusu sovet dönəmində "ədəbi əlaqələr", yaxud "folklor əlaqələri" adı altın-da öyrənilə bilərdisə, indi bu məsələni ermənilərə münasibətdə heç cür yazılı, yaxud şifahi "ədəbi

---

[16] Abbasov İ. Azərbaycan dastanlarının erməni dilinə tərcümə, təbdil və nəşri məsələlərinə dair // "Tədqiqlər". V kitab. Bakı: Elm, 1977, s. 54-137

[17] Abbaslı İ. Nabahet Quçaq və Azərbaycan folkloru // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXII kitab. Bakı: Nurlan, 2007, s. 16-27

[18] Ramazanov Y. X.Abovyan yaradıcılığında Azərbaycan xalq dastanlarının mövqeyi // "Tədqiqlər". VII kitab. Bakı: Elm, 1987, s. 152-160

əlaqələr” adı altında öyrənmək olmaz. Azərbaycan folklorunun, eləcə də dastanlarının erməni folkloruna, yazılı ədəbiyyatına təsiri yalnız zahiri tərəfləri baxımından “ədəbi əlaqələr” mövzusuna uyğun gəlir. Azərbaycan türklüyünün Qafqazda ermənilərlə XIX əsrdən başlanan qonşuluğunun acı və qanlı tarixi sübut etdi ki, biz gürcülərlə, yaxud Qafqazın digər qeyri-türk xalqları ilə hər hansı “ədəbi-folklor əlaqələri”mizdən danışa bilərik. Ancaq erməniyə münasibətdə belə ədəbi əlaqələr heç vaxt baş verməmişdir. Ermənilər qansoran zəli kimi bizim mədəniyyətimizi, incəsənətimizi, folklorumuzu, bütün milli-mənəvi dəyərlərimizi sormuş, bütün tarixləri boyunca Azərbaycan-türk mədəniyyəti ilə qidalanmış, lakin daim türkə nifrət etmiş, tariximizi, mədəniyyətimizi “ədəbi əlaqələr” adı altında məhv etməyə, üzərində boy atdıqları torpağın, ərazinin və mədəniyyətin sahibini – Azərbaycan türklüyünü yer üzündən yox etməyə çalışmışlar. Ona görə də “Azərbaycan dastan ənənələri erməni folklorunda” heç cür “folklor əlaqələri” problematikasına uyğun gəlmir. “Tədqiqlər”dəki məqalələrin təhlili göstərdi ki, bu məsələ, əslində olduğu kimi, yəni “dastan və tarixi-milli ənənələr” kimi qoyulmalıdır.

Dissertasiyanın **“Nəticə”sində** əldə olunmuş elmi qənaətlər ümumiləşdirilmiş və aşağıdakı nəticələr çıxarılmışdır:

1. Dissertasiyada “Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər” məcmuəsi əsasında Azərbaycan dastanlarının araşdırılması problemlərinin öyrənilməsi ilk növbədə bu problemin aktuallığını və sonrakı tədqiqat perspektivlərini təsdiqlədi.

2. Tədqiqatlarda qədim dövr türk dastançılıq ənənəsinin əsas qaynağı – “Yaradılış”, “Alp Ər Tonqa”, “Oğuz Kağan”, “Atilla”, “Boz-qurd”, “Göy türk”, “Ərkənəkon”, “Şu”, “Siyen-pi”, “Köç” və s. kimi mifoloji-epik, mənqəbə-dastan tipli mətnlərin əksəriyyəti araşdırmaya cəlb olunmuşdur.

3. “Kitabi-Dədə Qorqud” oğuznamələri ilə bağlı aparılmış tədqiqatlar, qorqudşünaslığın beş əsas istiqamətini əhatə etmişdir: tədqiq tarixi, poetika məsələləri, ənənə ilə əlaqə, tarix, mətnşünaslıq və dil məsələləri.

4. Müəyyənləşdirilmişdir ki, “Tədqiqlər”dəki uyğun araşdırmalarda milli dastançılığın inkişaf tarixinə bütöv şəkildə yanaşılmış, bu

tarix ən qədim dövrlərdən bugünə qədər izlənilmişdir. Bu cəhətdən qədim oğuz-türk eposunun davamı kimi orta əsrlərdən XX əsrə-qədərki inkişaf tarixi üç əsas istiqamətdə (1. Qəhrəmanlıq dastanları; 2. Qaçaq dastanları; 3. Məhəbbət dastanları) araşdırılmışdır.

5. "Tədqiqlər"də "Koroğlu" dastanı ilə bağlı araşdırmalar mövzu baxımından rəngarəng olub, beş əsas istiqaməti əhatə etmişdir: tədqiq tarixi, poetika məsələləri, dastanda mif və ritual, dastanın tarixlə əlaqəsi və dil məsələləri.

6. Məcmuədə qaçaq dastanları ilə bağlı tədqiqatların təhlili göstərmişdir ki, sovet dövrü folklorşünaslığında XIX əsr qaçaq hərəkatı və qaçaq dastanları daha çox sovet ideologiyası baxımından səciyyələndirilsə də, xüsusilə müstəqillik dövrü araşdırmalarında qaçaq dastanlarının qədim və orta əsrlər qəhrəmanlıq ənənəsi ilə əlaqəsi kimi məsələlər diqqət mərkəzində olmuşdur.

7. Orta əsrlər Azərbaycan dastançılıq ənənələrinin ən parlaq səhifələrindən birini təşkil edən məhəbbət dastanları ilə bağlı "Tədqiqlər" məcmuəsindəki materiallar mövzusu baxımından iki qrupu təşkil edir (Ayrı-ayrı məhəbbət dastanlarına həsr olunmuş yazılar və ümumiyyətlə, məhəbbət dastanlarının poetikasından bəhs edən yazılar).

8. "Tədqiqlər"də Azərbaycan dastançılıq ənənəsinin nəzəri problemlərinə həsr olunmuş yazılar ayrı-ayrı folklor mühitlərindəki dastan-yaratma ənənəsinə, dastanın mətn poetikasının müxtəlif məsələlərinə, dastanşünaslıqda termin məsələlərinə, dastanların təsnifatı məsələlərinə, o cümlədən Azərbaycan dastanlarının erməni folkloru və ədəbiyyatına təsiri məsələlərindən ibarətdir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**


1. "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" məcmuəsi əsasında Azərbaycan dastanlarının araşdırılması problemləri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər məcmuəsi. XXXII kitab, 2010, s. 42-53
2. "Tədqiqlər"də "Kitabi-Dədə Qorqud" oğuznamələri: Mifoloji-epik ənənə, tarix, mətnşünaslıq və dil məsələləri". // Filologiya məsələləri. №5, "Elm və təhsil" 2011, s.192-203
3. "Tədqiqlər" məcmuəsində Azərbaycan məhəbbət dastanlarının araşdırılması problemləri". // "Dil və ədəbiyyat" jurnalı, 2011, s.205-209
4. «Проблемы классификации народных эпосов Азербайджанской фолклористике (на основе «Исследования по Азербаджанской устной народной литературе»)».// Ученые записки Таврического Национального Университета им. В.И.Вернадского. Том 24 (63), № 3 Филология, Социальные коммуникации. 2011, с.87-93
5. "Tədqiqlər"də "Kitabi-Dədə Qorqud" oğuznamələri: tədqiq tarixi və poetika məsələləri. // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər məcmuəsi. XXXIV kitab, 2011, s. 75-92
6. "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" məcmuəsində arxaik türk dastanları və Oğuznamə ənənəsi məsələləri. // "Dədə Qorqud" jurnalı. № 3, 2011, s. 192-202
7. "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" məcmuəsində qəhrəmanlıq dastanı ənənəsi və qaçaq dastanları problemi. // Filologiyanın aktual problemləri: Axtarışlar və perspektivlər. Respublika Elmi Konfransının materialları, Sumqayıt, 2012, s.186-187
8. "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" məcmuəsində qəhrəmanlıq dastanı ənənəsi və qaçaq dastanları problemi. // "Qafqaz xalqlarının folkloru və lingvokulturologiyası" mövzusunda Beynəlxalq Elmi Simpoziumun materialı. Tiflis, 2012, səh. 147-152.

**Гульнара Сеидова**

**Проблемы исследования азербайджанских дастанов (на основе сборника «Исследования устной народной литературы Азербайджана»)**

**Р Е З Ю М Е**

Диссертация состоит из введения, трех глав, вывода и списка литературы.

Во «Введении» обосновывается актуальность темы исследования, показывается объект и предмет работы, цели и задачи, научные новшества, теоретические и методологические основы, теоретическая и практическая значимость, дается информация об апробации и структуре.

Первая глава диссертации называется **«Проблемы древнего тюркско эпоса в «Исследованиях»**. В первом разделе этой главы под названием «тематико-статистическое описание исследований по дастановедению в сборнике «Исследования» статьи рассматриваются с общей точки зрения; во втором разделе под названием **«Архаичные тюркские дастаны и традиция Огузнаме»** анализируются статьи, прослеживающие динамику развития древней тюркской традиции дастановедения; в третьем разделе под названием **«Огузнаме Китаби-Деде Горгуд»** анализируются статьи, посвященные литературному памятнику под такими параграфами, как «История исследования КДГ», «Поэтика КДГ», «КДГ и традиция», «КДГ и история», «Проблемы текстоведения и языка КДГ».

Вторая глава работыназывается **«Исследования дастанов о геройстве и любви в «Исследованиях»»**. **В первом разделе** этой главы, называемой «Дастан Короглу», статьи, посвященные эпосу, анализируются по параграфам «Публикации и истории исследования», «Проблемы поэтики», «Мифы и ритуалы», «Проблемы истории и языка». Во втором разделе, называемом **«Гачагские дастаны»** исследуется последняя стадия традиции геройских дастанов. **В** третьем

разделе, называемом **«Любовные дастаны»**, исследования сборника проанализированы под такими параграфами как «Различные любовные дастаны», «Поэтика любовных дастанов».

Третьяглава исследования называется **«Исследования традиции дастановедения в «Исследованиях»**. В первомразделе под названием «Теоретические вопросы дастановедения» статьи, относящиеся к этой проблеме, анализируются под параграфами «Региональные дастаны», «Проблемы текста дастанов», «Проблемы терминов в дастановедении», «Классификации дастанов». **Во второй главе**, называемой «Дастан и историко-народные традиции», статьи, посвященные проблеме, анализируются под параграфом «Азербайджанские дастанытрадиции в армянском фольклоре».

В разделе **«Заключение»** обобщаются полученные выводы, и показываются перспективы направлений развития темы.

**Gulnara Seyidova**

## Research problems of Azerbaijan epos (on the basis of "Research on Azerbaijan folklore" journals)

## S U M M A R Y

The dissertation includes introduction, three chapters, conclusion, and reference list.

The urgency of research topic was ensured, the objectives and subject of the research, aims and responsibilities, scientific innovations, theoretic-methodological basis, theoretical and experimental importance were indicated and its structure was shown in the "Introduction" part.

The first chapter of dissertation is called "Ancient Turkish epos problems in "Research". The articles in the journal were described in a general way in the first sub-chapter called "Thematic-statistic description of epos studies in "Research" journal", the articles following the progress dynamics of ancient Turkish epos tradition were analyzed in the second sub-chapter called "Archaic Turkish epos and Oguzname tradition", and in the third sub-chapter called "Kitabi-Dede Gorgud" includes articles where they are listed by "KDG research history", "KDG poetry", "KDG and tradition", "KDG and history", "Textual criticism and language problems" paragraphs.

The second chapter of dissertation is called "Research on heroic and love epos in "Research". The first sub-chapter called "Koroglu" epos includes articles where they are listed by "Publication and research history", "Poetry", "Myth and ritual", "History and language" paragraphs.The second sub-chapter called "Qachaq epos" includes the research on the last stage of heroic epos tradition. The third sub-chapter called "Love epos" consists of "Different love epos", "Poetry of love epos" paragraphs.

The third chapter of research is called "Teach of epos tradition in "Research". In the first sub-chapter called "Problems of Epos studies samples", the articles are listed by "Epos of regional

conditions”, “Textual issues of epos”, “Terminological and means of epos studies”, “Classification of epos” paragraphs. In the second sub-chapter called “Epos and historical-national traditions”, the articles are listed by “Azerbaijan epos traditions in Armenian folklore” paragraph.

“Conclusion” part summarizes the results attained, and potential development directions of the subject were discussed.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

*На правах рукописи*

**ГЮЛЬНАРЕ АЛАДДИН гызы СЕЙИДОВА**

# ПРОБЛЕМЫ ИССЛЕДОВАНИЯ АЗЕРБАЙДЖАНСКИХ ДАСТАНОВ
## (На основе сборников «Исследования по Азербайджанской устной народной литературе)

**5719.01 - Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**Б А К У – 2013**